# Türk Filmləri Həftəsi başa çatıb

**Bakıda keçirilən Türk Filmləri Həftəsi başa çatıb. Həftə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Türkiyə Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Bakıdakı Yunus Əmrə İnstitutunun birgə təşkilatçılığı ilə keçirilib.**

Nizami Kinoteatrında keçirilən bağlanış mərasimində bildirilib ki, Azərbaycanda Türkiyə istehsalı olan filmlərə hər zaman böyük məhəbbət olub. Uşaqlıq illərindən hər birimiz baş rollarda “Kara Murad” ləqəbi ilə tanınan Cüneyt Arkının, “Şaban” ismi ilə sevilən Kamal Sunalın, “Kibar Feyzo” və “Bankir Bilo” kimi tamaşaçıların rəğbətini qazanan İlyas Salmanın filmlərini böyük məhəbbətlə izləmişik. Bu gün də belədir. Türk Filmləri Həftəsi çərçivəsində qardaş ölkənin kinematoqrafçılarının son illər istehsal etdikləri 7 yeni filmin Nizami




Kino Mərkəzində nümayiş və təqdim olunan ekran əsərlərinə göstərilən diqqət və maraq bunu təsdiq edir.

Xatırladaq ki, kinorejissor Semih Kaplanoğlunun “Bağlılık Hassan” filmi ilə start götürən kinofestival çərçivəsində İsmail Fidanın “Rafadan Tayfa Göbeklitepe”, Mustafa Uğur Yağcıoğlunun “Aşkın Ömrü”, Emir Khalizadehin “Adanış - Kutsal Kavga”, Özer Feyzioğlunun “İyi ki varsın Eren”, Kemal Uzunun “Ankara Yazı” və Mehmet Ada Öztekinin “7. Koğuştaki Mucize” filmləri böyük ekranlarda Azərbaycan altyazıları ilə nümayiş etdirilib. Türk Filmləri Həftəsi “İyi ki varsın Eren” filminin nümayişi ilə başa çatıb.

Tədbirlə əlaqədar olaraq, sözügedən filmlərin yaradıcı heyətləri də daxil olmaqla Türkiyənin tanınmış kinematoqrafçıları, Mədəniyyət və Turizm Nazirliyinin nümayəndələrindən ibarət heyət ölkəmizdə səfərdə olub.

**Elçin ABBASOV, “Xalq qəzeti”**

Xalq qəzeti .- 2022.- 22 dekabr.- S.10.